«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 8 dekabr (Bazar günü) tarixli 59-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Yekşənbə, 4 rəbiüləvvəl sənə 1337.
8 kanuni-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İXTAR [XƏBƏRDARLIQ]

Azərbaycan Məclisi-Məbusanının güşadı [açılışı] münasibətilə tarixi bayram gününü tətil etdiyimizdən, qəzetəmizin 59-cu nömrəsi iki səhifə çıxır.

AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

Bu gün 7 kanuni-əvvəl [dekabr]:

İllərlə intizarını çəkdiyimiz tarixi bayram günü hələ səhər tezdən evdən çıxarkən şəhərdə başqa bir halət, başqa bir ruh görürsən. Bu gün sair günlərə bənzəməz. Bu gün bazar, dükan bağlıdır. Bu gün məktəblərdə çocuqlar dərsdən azad edilmişlərdir. Bu gün ümum müəssisələr bayram edirlər. Azərbaycanın tarixi bayramı. Birinci Məclisi-Məbusanın güşadı bayramı. Küçələrdə, evlərdə hamı bir-birini təbrik edir, hamı şad, hamı məsrurdur [sevinclidir].

Səhərdən şəhər küçələrində zirehli avtomobillər görülürlər. Hələ saat 9-dan qabaq bütün dükanların bağlamış, bayram etmiş olan türk-islamlar Parlaman binası – fəqət o sevgili, möhtəşəm, müəzzəm "İsmailiyyə" deyil, ünas [qız] məktəbi olan bina – qabağında yüzlər, bəlkə minlərlə toplaşıb danışır, hər kəs öz dairəsində, öz "ağlı kəsdiyi" kimi övzayi-siyasiyyədən [siyasi vəziyyətdən], istiqbal və istiqlaldan, hürriyyət və istibddaddan bəhs, mübahisə edir. Camaatda bir qaynaşma var.

Birinci iclas

Nikolayevski küçədə iki zirehli avtomobil dayanmış, küçədə ingilis və azərbaycan fəxri qaraqolu [qarovulu] durub, Bazarnı küçədən Persidskiyədək, Nikolayevskidən şəhadətnaməsi olmayanı buraxmayırlar. Parlaman binasının qapısından salonadək qaraqollar durub, küçədən salonadək xalılarla bəzənmişdir. Parlaman binasının üstündə və lojada Azərbaycan bayrağı vurulmuşdur. Tamaşaçılar üçün təyin edilmiş yerlər doludurlar. Tamaşaçılar içində bir çox xanımlar dəxi vardırlar. Ümumiyyətlə ruh yüksəkliyi hökmfər-madır [hökm sürməkdədir].

İclas açılmadan əvvəl məbuslar və sairləri dəstə-dəstə, topa-topa yığışaraq əhvali-hazirə [hazırkı vəziyyət] və övzayi-siyasiyyə [siyasi vəziyyət] haqqında danışırlar. Parlamanın vəzifəsi, gələcək Məclisi-Müəssisan, hazırkı hökumət və sairə haqqında mübadileyi-əfkar [fikir mübadiləsi] icra olunur.

Diplomasi nümayəndələr lojalarında İran, Dağıstan və Gürcüstan nümayəndələri əyləşmişlərdir.

Nəhayət, saat ikinin yarısında iclas açılır. İclası Məhəmməd Əmin bəy Rəsulzadə cənabları nitqi-iftitah [açılış nitqi] ilə açaraq Azərbaycan istiqlalının müxtəsər tarixindən, elani-istiqlaldan əvvəlki haldan və rus istibdadından incimiş, zənciri-əsarət altında əzilmiş və bittəb' [təbii ki] bundan dolayı rus hökumətinə nifrətlə baxmaqda olan müsəlmanların və xüsusən Azərbaycan türklərinin rus milləti və rus mədəniyyətinə qarşı məhəbbət və dostluqdan başqa bir fikri olmadığını qeydlə, nəhayət Azərbaycanın yaşamasına ətfi-kəlam edir [sözü gətirir]. Bütün millətlərin amal və gedəcək yolları bir olduğunu göstərərək, bu gün bu binada qaldırılmış olan bayrağın enməyəcəyinə, həmin bu amillərin dəlil və azərbaycanlıların şüarı olaraq istiqlal və hürriyyət uğrunda göstərdikləri və göstərməyə hazır olduqları fədakarlıqların bir istinadgah olduğunu, paytaxtımızda bulunan Müttəfiqlər nümayəndələrinin də münasibat və rəftarını qeydlə deyir ki, vicdani-bəşər heç vaxt böylə zülmü işləməz ki, bizi bu səadətdən məhrum qılsın. Binaileyh [ona görə] natiq cənabları azərbaycanlıları ittihad [birlik] və ittifaqla çalışaraq, müstəqil yaşamağa qabil, müstəid [istedadlı, qabiliyyətli] və müstəhəqq [haqqı çatan] olduğumuzu isbat etməyə çağırır.

(Nitq kərratla [dəfələrlə] gurultulu alqışla kəsilir.)

Nitqinin axırında sədr cənabları, bir sədr ilə bir baş müavin seçməyi təklif edir. Beş dəqiqə tənəffüsdən sonra "Müsavat" və bitərəflər namından [adından] Şəfi bəy Rüstəmbəyov sədrliyə Əlimərdan bəy Topçubaşovun və baş müavinliyə Həsən bəy Ağayevin namizədliyini təklif edir.

Təklif ümumiyyətlə qəbul olunur.

Həsən bəy Ağayev sədr yerini tutaraq böylə tarixi gündə bunca nəsibinə böyük şərəf və ehtiram düşdüyündən, izhari-etimad edərək [etimad göstərərək] seçənlərə təşəkkürünü bəyan edir.

Sonra müvəqqət bir katib intixabı [seçilməsi] lüzumunu qeydlə, Parlaman adətincə katibliyə ən cavan məbusu seçmək qaydasını bəyan və binaileyh Rəhim bəy Vəkilovun namizədliyini təklif edir. Təklif qəbul olunur.

Sonra Azərbaycanın hər yerindən və ümum millətlər və siniflərdən alınmış olan təbrik teleqraflarını qismən oxuyur. *(Teleqraflar dünkü sayımızda dərc edilmişlərdi.)*

Teleqraflardan sonra Hökumət rəisinə söz verilir.

Fətəli xan Xoyski uzun və gurultulu alqışlar altında kürsiyi-xitabətə çıxaraq ibtida [əvvəlcə] böyük, əziz, mübarək gün münasibətilə Parlaman əzasını Hökumət namından təbrik edir. Sonra Hökumətin məsuliyyət və fəaliyyətindən bəhslə, hər nazirin öz nəzarəti [nazirliyi] haqqında müfəssəl bəyanat və məruzə verəcəyini vəd edir. Kəndisi isə Azərbaycan Hökumətinin heyni-təşəkkülündən [quruluş vaxtından] bu vaxtadək nə kimi daxili və xarici şərait altında nə surətlə çalışdığını, o vaxtkı anarşi, yolsuzluq [nizam-intizamsızlıq], müxabirəsizlik [rabitəsizlik], pulsuzluq, əsgərsizlik və ümumiyyətlə bir dövlət və hökuməti yaşada biləcək amillərin ümumiyyətlə yoxluğunu zikrlə [qeyd edərək], Hökumətin fəaliyyətini təsvir edir və şükr eyləyir ki, ən mühüm məsələlər qüsurla da olsa həll edilmiş: pul kəsilmiş və əsl Azərbaycan pulu bu yaxınlarda hazırlanacaqdır; yollar, post-teleqraf münasibat və müxabiratı açılmış; paytaxtımız hüquq və ədalət bayrağı altında hüququ tapdayanların əlindən alınmışdır.

Natiq həzrətləri türklərin dəvəti, qonşu millətlər və hökumətlərlə münasibatımızı [əlaqələrimizi] və sairlərini açıq təsvir etdikdən sonra deyirlər ki, şimdi artıq Parlaman dəvət olundu. Heç hökumət bundan sonra bir dəqiqə belə iş başında qalmaq istəməz. Binaileyh hökumət istefa verir.

(Gərək Məhəmməd Əmin bəy və gərəksə Xan Xoyski həzrətləri nitqlə-rinin təfsilatı sabahkı nömrəmizdə olacaqdır.)

Məhəmməd Əmin bəy təklif edir ki, yeni hökumət təşəkkülünədək sabiq hökumət məmləkəti idarəsiz buraxmayaraq iş başında qalsın. Təklif qəbul olunur.

Sədr etibarnamə, nizamnamə və təsərrüfat komissiyaları seçmək lüzumunu göstərərək namizədlər göstərilməsini təklif edir. Bu namizədlər göstərilirlər:

"Müsavat" və bitərəflərdən: Şəfi bəy Rüstəmbəyov, Məhəmməd Yusif Cəfərov, Abbasqulu Kazımzadə;

Sosialistlər İttifaqı (müsəlman) tərəfindən: [Məhəmməd] Məhərrəmov, [Aslan bəy] Səfikürdski, [Camo bəy] Hacınski;

"Hümmət" firqəsindən: [Əliheydər] Qarayev, [Qasım bəy] Camalbəyov və [Əkbər ağa] Şeyxülislamov;

"İttihad" firqəsindən: Vəzirov Zeynal bəy, Məhəmmədbəyov və Qara bəy Qarabəyov;

Gürcülər, lehlər, yəhudilər və almanlar nümayəndələri tərəfindən: Quxman, Vanseviç və Tsaxakaya;

Rus-slav məbusları tərəfindən: Mixaylov, Klenevski və Kravçenko.

Namizədlər qəbul olunur.

Sonra "İttihad" firqəsi təklif edir ki, Parlaman güşadı münasibətilə siyasi məhbuslara əfvi-ümumi [amnistiya] elan olunsun.

"Sosialistlər İttifaqı", "Müsavat" və "Hümmət" bu təklifi təbrik edirlər. Əsas etibarilə etiraz edən olmayır, fəqət bu təklifin qanun layihəsi surətində təqdimi və müəyyən bir komissiyaya fraksiya tərəfindən verilməsi məsələsi qaldırılaraq, nəhayət ittifaqi-ara [səs birliyi] ilə 5 nəfərlik bir komissiyaya mühəvvəl edilməsi [tapşırılması] təhti-qərara alınır.

Komissiyaya aşağıda isimləri yazılan məbuslar daxil olurlar:

"Müsavat"dan - Qardaşov;

"Sosialistlər İttifaqı"ndan - Səfikürdski;

"Hümmət"dən - Ağamalov;

Bitərəflərdən - Əfəndiyev;

"İttihad" firqəsindən - Zeynal Tağıyev.

İclas saat 5 radələrində qapanır. Gələcək iclas, düşənbə [bazar ertəsi] günü, saat 12-yə təyin edilir.

TELEQRAF XƏBƏRLƏRİ

* Bolqariyadan alınan məlumata görə, ukraynalılar təkid edirlər ki, Rusiyanın təcdidindən [bərpasından] başqa, Etilaf dövlətlərinin Ukrayna, İngiltərə məntəqeyi-nüfuzunda [nüfuz dairəsində] olan İranla həmhüdud Qafqazya barəsində ayrıca bir fikirləri var.

* Yassıda iniqad etmiş [baş tutan] diplomatlar müşavirəsində təcdid [bərpa] ediləcək Rusiyanın üsuli-idarəsi məsələsi açıq qalmışdır. İşbu məsələni, yeni intixabatla [seçkiylə] çağırılacaq Məclisi-Müəssisan [Təsis-çilər Məclisi] həll edəcəkdir.

* Kiyevdən Yassıya azim olmuş [yola düşmüş] [P. N.] Milyukov, Krivoşein və Tərəqqipərvər bloku sədri [V. V.] Meller-Zakomelskidən əlavə Moskva Bələdiyyə rəisi [V. V.] Rudnev, xalq sosialisti [A. A.] Titov, Rus Ticarət və Sənaye [Komitəsinin] sədri Çembers də getmişlər. Böyləliklə, müşavirədə ifrat sağ və sollardan siva [başqa] hamı müttəhid [birləşmiş] Rusiya tərəfdarı zəvat [şəxslər] iştirak edəcəkdir. Bunlardan əlavə, müşavirədə Yekaterinodardakı dəstələr nümayəndələri də iştirak edəcəklər. Müşavirə on günədək uzanacaqdır. Yassıya varid olanadək, ehtimala görə, Odessada hazırlıq müşavirəsi olacaqdır.

Milyukov şəxsən Etilaf hökumətləri nümayəndələri ilə müşavirədə iştirak etməyə dəvət edilmişdir.

Ukrayna Kadet komitəsi sədri [D. N.] Qriqoroviç-Barski də dəvətnamə almışdır. Dövləti İttifaq nümayəndəsi [və] Petroqrad dava vəkili [M.S.] Marqulies, Dövlət Şurası Mərkəzi başçısı Meller-Zakomelski və başqa camaat xadimləri də getmişlərdir.

* Almaniya Hökuməti Vilhelmə və ailəsinə vətənə qayıtmağı qadağan etmişdir.

* Kanuni-əvvəlin [dekabrın] üçündə Liondan xəbər verirlər ki, alman sosialistlərinin təkidatına görə Vilhelm təşrini-saninin [noyabrın] 28-ində təxti-səltənətdən əl çəkməyi imza etmişdir.

* Klemanso və Foş Londona varid olmuşlardır [çatmışlar]. Buna binaən [buna görə] böyük ruh yüksəliyi ilə nümayiş vaqe olmuşdur.

* Belçika kralı hökumət üzvləri ilə bərabər Parisə gedəcəkdir.

* Mütarikə şəraiti [atəşkəs şərtləri] ələlümum [ümumilikdə] öz qaydasınca icra edilməkdədir. Müttəfiq dövlətlər nəqliyyat işlərinin gəldikcə fəna bir hala düşməsinə və yanacaq olmadığından fəhlələrin tətili artmasına baxmayıb, mütarikə şəraitinin yüngülləşməsində güzəştdə bulunmaq istəməyirlər. Nəqliyyat işlərinin bu hala düşməsinə görə Berlində ərzaq qəhətliyi şiddət etməkdədir. Müttəfiq dövlətlər mütarikə şəraitinin layiqincə ifa edilməsi təkidatı ilə mütarikə müddəti bitdikdən sonra Almaniyanın başqa əyalətlərini zəbt etmək vəsaitini [vasitələrini] axtarırlar.

SÜLH ƏTRAFINDA

* Kanuni-əvvəlin 3-ündə Stokholmdan xəbər verirlər ki: "Royter" acentəliyinin verdiyi xəbərə görə, sülh şəraitinə nəzarət etməkdən ötrü imperialistlər Sülh Konfransında xüsusi bir beynəlmiləl komissiyası vücuda gətirilməsi təsəvvür edilir.

* Sülh Konfransının nə zaman açılması və tərzi-hərəkatı, həmçinin mütarikə şəraiti ifası [atəşkəs şərtlərinə əməl edilməsi] ilə əlaqədər olan məsələlərlə qeyri məsələlər və Vilhelmin əhvalı, konfrans tərəfindən müzakirə edilməkdədir.

* Nüfuzlu dairələrdən verilən xəbərlərə görə, Sülh Konfransı kanuni-əvvəlin [dekabrın] ortalarında Versal şəhərində açılıb çox uzun müddət davam etməyəcəkdir. Çünki Müttəfiqlər Almaniyadakı əhval münasibəti ilə özlərini "müharibə məqsədinə" nail olmuş hesab edirlər. Versal Konfransından əvvəl Parisdə Müttəfiqlər Konfransı dəvət ediləcəkdir. Rusiya nümayəndəliyi də təmin edilmişdir.

KRIMDA

* General Sulkeviç, general Foşdan böylə bir teleqraf almışdır: Bu gün səhər böyük siyasi firqə nümayəndələri mənə xəbər verdilər ki, sizin hökumətinizin əleyhinə başlanmış olan kampaniya gəldikcə şiddətlənməkdədir. Mənə tabe olan əsgərlərin mənafeyini nəzərə alaraq, məmləkətdə narazılıq artması üçün çalışmalıyız. Burasını[n] da nəzəri-diqqətə alınmasını xahiş edirəm ki, məəttəəssüf [təəssüf ki], sizin hökumətinizi artıq müdafiə etmək iqtidarım yoxdur.

* Krım türkləri ilə münasibat [münasibətlər] düzəlməkdədir. Tatarlar Baş vəzir [Baş nazir] mənsəbinə tatar qoyulması tələbatından imtina etmişlərdir. Türklər Parlamanı bürosu Krım kabinəsinə Krımtayevi, Qıpçakskini və mühərrir Vəzirovu namizəd göstərmişdir. Krım kabinəsi bu günlərdə təşkil ediləcəkdir.

* Sulkeviç kabinəsi istefa vermişdir. Krım Baş vəzirinin Yaltadan varid olması [gəlməsi] gözlənir. Təzə kabinə heyəti hələ müəyyən edilməmişdir. Kadetlərdən, Krımdan başqa, Nabokov, Vinaver, Boqdanov və Stevenin, eserlərdən Foss və "Yedinstvo" firqəsindən Bobrovskinin kabinəyə daxil olacaqları yəqin edilir. Sulkeviç əlvida bəyannaməsi ilə əhaliyə müraciətdə bulunmuşdur.

ŞİMALİ QAFQAZİYA CÜMHURİYYƏTİNDƏ

Nalçik

Şimali Qafqaziya Cümhuriyyəti Hökuməti Azərbaycan Cümhuriyyəti Hökuməti və Müttəfiq dövlətlərin komandanı nəzdində diplomasi nümayəndəliyinə Əlixan Qantəmiri təyin etmişdir.

Kazaklara müavinət [kömək]

Aldığımız məlumata görə, Qafqaz Terek kazakları Şimali Qafqaziya Cümhuriyyəti Hökumətinə müraciətlə bu son vaxtlarda bolşeviklərlə olan müharibədə təxrib edilmiş [dağıdılmış] kazak köyləri əhalisinə maddi yardımda bulunub onlara yer verilməsini və bu davada ağır surətdə yaralanmış və sanı 400-ü mütəcaviz olan [keçən] Könüllü qoşunun zabit və əsgərlərinə tibbi müavinətdə [yardımda] bulunmasını dəxi rica və təmənna etmişdir. Petrovsk şəhərində tibbiyyə ləvazimatının yoxluğundan dolayı Dağıstanlılar Hökuməti sədri Çermoyev, Azərbaycan Hökumətinə müraciət edərək orada naxoşları qəbul etməyi xahiş etmişdir.

Kazakların xahişi

Terek mahalı kazaklarının sədri Gireyev və Safronov bolşeviklərin hücumu münasibətilə axırıncı əhvalları müzakirə etməkdən ötrü Dərbəndə gəlmişlərdir. Dərbənddən dəxi həmin məqsədlə məzkur [adı çəkilən] cənablar, Müttəfiq dövlətlər komandanı nümayəndələri ilə görüşməyə Bakıya gəlmişlərdir. Bolşeviklərlə nə yolda mübarizə etmək lazım olacağına dair Müttəfiq dövlət nümayəndələri ilə Dağıstanlılar Hökuməti arasında müzakirə davam etməkdədir.

Dağıstanlılar qurultayı

Kanuni-əvvəlin [dekabrın] 1-inə təyin edilmiş olan Dağıstanlılar qurultayı, bolşeviklərin hücumu və bir para səbəblərdən dolayı təxirə düşmüşdür.

QƏZETƏLƏRDƏN

Gizli müahidənamə [saziş]

Ukraynada müntəşir [nəşr edilən] "R. Q." qəzetəsinin məlumatına görə, işbu günlərdə Qaliçya və Bukovinanı təqsim etmək [bölmək] üçün Lehistan ilə Romaniya miyanında [arasında] gizli bir müahidənamə əqd edilmişdir [imzalanmışdır]. Lehistan Qaliçyanı, Romaniya isə Bukovinanı mülhəq [ilhaq] etməkdə bir-birlərinə müavinətdə bulunacaqlardır [kömək edəcəklər].

Nikolay Nikolayeviç

Yekaterinodardan xəbər verirlər ki, Nikolay Nikolayeviç Yekaterinodara yazdığı məktubda bəyan edir ki, siyasət aləmindən bilmərrə [tamamən] kənara çəkilmişdir. Kiyev Monarxist bloku Nikolay Nikolayeviçə bolşeviklərlə mübarizə edən hamı ordu komandalığını təklif edib, bolşeviklər qovulduqdan sonra naibüssəltənə [səltənət naibi, vəkili] təyin edilməsini vəd edirlər. Nikolay Nikolayeviç monarxistlərə cavab vermişdir ki, süngü və güllə gücü ilə Rusiyada monarxiya (padişahlıq) bərpa edilməsinə inana bilmədiyindən, böylə macəraculuqdan [macərapərəstlikdən] imtina edir.

* Yekaterinodara teleqrafla xəbər verirlər ki, Denikin Ukrayna əsgərlərinin baş komandanı təyin edilmişdir. Baş ərkan [qərargah] komendantı Korvin-Krukovski Krımda quruya çıxan əsgərlərin komandanı təyin edilmişdir.

* Şimal cəbhəsində İngiltərə təyyarəçiləri rus əhalisinə xitabən dəvətnamələr buraxmışlar. Bu dəvətnamədə bolşeviklərə silahı yerə qoymaq və Rusiyanı bolşeviklərdən azad edib hökumət ixtiyarını Məclisi-Müəssisana verməkdən ötrü böyük qüvvə ilə gəlməkdə olan Müttəfiq dövlət əsgərləri əleyhinə nahaq yerə müqavimət göstərməyə imtina etmək təklifi edilir.

* "Borba" qazetəsinin yazdığına görə, Biçeraxov yoxsul ermənilər nəfinə [xeyrinə] 10 milyon manat ianə vermişdir.

Tersk nahiyəsində

Qafqayda Xalq Komissarları Şurası bir dekret nəşr edərək əksinqilabla mübarizə etmək qəsdi ilə 18-dən 25 yaşınadək bütün vətəndaşlara səfərbərlik elan etmişdir. İşbu səfərbərlik Qafqay əhalisi miyanında [arasında] həyəcana bais olmuşdur. Əhalinin əksəri Tersk nahiyəsindən çıxmaq istərsə də, Əksinqilabla mübarizə edici komitə tərəfində tövqif [həbs] edilirlər.

Bolşevik çəyirtkəsi

General Denikin ordusunun bolşevikləri şimala doğru qovduqdan, Tersk nahiyədə bir çox qırmızı qvardiya əfradı cəm olmuşdur. Bunların miqdarı 80 min olub yüngül, ağır topxana və mitralyozlara malikdirlər. İşbu müdhiş fəlakət Tersk nahiyəsində yürüdükcə, rast gəldikləri yerləri xarabazara döndərirlər. Kazak kəndlərinin əksəri yəğma edilmişdir. Tersk nahiyəsi təhdid altındadır.

İngiltərə və Rusiya

Rotterdamdan "B. T." qəzetəsinə verilən məlumata görə, Dardanel açıldıqdan sonra İngiltərə Cənubi Rusiyaya bolşevik hökuməti ilə mübarizədən ötrü kafi miqdarda qüvvə göndərə bilmişdir. Murman fəaliyyəti dayandırılammaz, fəqət ümdə zərbə cənubdan ehtimal olduğu üçün əhəmiyyətini itirir.

Hazırlanmış İngiltərə qitəatı [hərbi hissələri] Şimali Qafqaziyadakı Alekseyev ordusu ilə birləşib Xarkovdan təərrüz [hücum] yapacaqlar. İşbu fəaliyyətin təfsilatı, Londra borsasında müzakirə edilməkdədir. Ehtimala görə, fəaliyyət Dardanelin açılmasından dolayı tez qurtaracaqdır. Ağ dənizdəki [Aralıq dənizindəki] İngiltərə donanması iştirak edəcəkdir.

* Moskvadan "Kurski pravda" qəzetəsinə xəbər verirlər ki: Oktaybr yubileyində böyük biyabırçılıq vaqe olmuşdur. Təşrini-saninin [noyabrın] 7-sində Kalyayev, Perovskaya, Marks, Engels və qeyriləri namına qoyulan abidələrin bəzisi sındırılıb, bəziləri nəcasətlə boyadılmışdır. "Şura" qazetəsi xəbər verir ki, bu iş təftiş edilməyə başlayıb bir çox adamlar həbs edilmişdir.

* Rostov Qırmızı ordu Baş komandanı Abramov həbs edilmişdir. Abramov bu axır günlərdə Rostova gəlib saxta sənədlərlə Könüllü orduya daxil olmaqla bərabər Gelencik limanı naçalniki təyin edilmişidi. Sonra mühüm bir iş üçün Don oblastına göndərilmişdir.

Ukraynada

Təşrini-saninin [noyabrın] 18-ində, gecə saat 12-də Ukrayna demokrat əsgərləri Ukrayna Xalq Cümhuriyyətini elan etmişlərdir. Getman qanundan kənar elan edilmişdir. Baş ataman Petlyura intixab edilmişdir [seçilmişdir]. Məhəlli [yerli] hökumət həbsə alınmışdır.

NƏZARƏTLƏRDƏ

* Ümuri-Xeyriyyə [Sosial Təminat] Nəzarəti tərəfindən Nuxa dövlət xəzinəsinin cənbində [nəzdində] möhtac, qaçqın və fəlakətzədələrə acil müavinət üçün 10 min rublə istiqraz açılmışdır. Bu müavinət işlərində məhəlli qaçqınlar komitəsi icbarən işləməlidir.

* Ümuri-Xeyriyyə Nəzarəti, Maarif Nəzarətinə etdiyi müraciətində qaçqın və fəlakətzədələrin övladının mövcud hökumət məktəblərində məccanən [pulsuz] oxuması üçün binagüzarlıqda bulunmasını [sərəncam verməsini] təmənna etmişdir. Digər tərəfdən Səhhəti-Ümumiyyə [Xalq Səhiyyəsi] Nəzarətinə müraciətlə, məhəllələrdə hökumət və bələdiyyə xəstəxanalarının və heyəti-tibbiyyəsinin qaçqınlara və fəlakətzədələrə tibbi müavinətdə bulunması binagüzarlığı xüsusunda təşəbbüsatda bulunmuşdur.

* Qaçqınları öz yurdlarına yerləşdirmək və buraxdığı yerlərdən istifadə etmək üçün Əmlak və Ərazi Nəzarəti cənbində [nəzdində] təşkil edilən xüsusi komissiyaya Ümuri-Xeyriyyə Nəzarəti tərəfindən qaçqınlar şöbəsi müdiri Klenevski nümayəndə təyin edilir.

* Evlər Mərkəzi (Sentrodom) yanındakı iaşə məntəqələri müəxxəsi [nümayəndəsi] tərəfindən Ümuri-Xeyriyyə Nəzarətinə gəlmiş bir məktubda Suraxanı dairəsində yeni bir iaşə məntəqəsi təsis edildiyini xəbər verməklə bunun üçün Nəzarət tərəfindən para təxsis edilməsi istirham olunur ki, bəlkə bu yaxınlarda nahar verməyə şüru edilsin [başlansın].

BƏYANİ-TƏŞƏKKÜR

- 1 -

Möhtərəm müdir! İnsaniyyat naminə bu neçə kəlmənin sevgili "Azərbaycan" cəridəyi-fəridəsində [müstəsna qəzetində] dərcini rica edirəm.

Mart hadisatından naşi [Mart hadisələri səbəbindən] məndən ziyadə maddi və mənəvi xəsarətə düçar və fəlakətə giriftar olmamış desəm, səhv etməmiş olaram. Böylə ki, külfətimi İrana apardıqda bir dənə də olsun libas, yatacaq və başqa dirliyə yarar əşyamız qalmamışdı. Necə ki, Bakı fərarilərinin bir hissəsi, habelə acizləri də altı aydan ziyadə bir müddətdə Gilanda Lahican qəsəbəsində yaşayırdıq.

Bu altı ayın müddətində acizlərinə və çoluq-çocuqlarıma müavinətlərdə bulunub, kəndilərindən artıq bəsləyib də min dürlü məxarici-tədavi [müalicə xərcləri] də qeyrəyə kəfalət edən zəvata [şəxslərə] hansı bir lisanla izhari-təşəkkür etməmi kəndim də bilməyirəm. Bu qədər deyirəm ki, atidə [aşağıda] adları zikr olunan əşxasın hümmət və himayələri olmasaydı acizləri külfətimlə məa [birgə] çoxdan tələf olardıq.

"Mən əhyaha fəkəənnəma əhya-unnasə cəmiən" ayeyi-şərifəsi [şərafətli ayəsi] bir nəfəri bir dəfə diriltmək barəsində buyrulmuşsa, bu xoştinət [xoşxasiyyət] zəvat, dörd nəfəri yüzlərcə dəfələr ehya etdilər [diriltdilər; yaşatdılar]. O möhtərəm zəvatın əsamisi [adları] bunlardır:

1) Məşədi Tağı Rəhimov. Bu cənab Ənzəli, Rəşt və Lahicanda Bakı fərarilərinin füqərasına hər anda müavinətdə bulunub, qayıdış baş bəzilərinin yol və başqa məxariclərini də öhdəsinə almışdır.

2) Kərbəlayi Məhəmmədbağır Əliyev. Bu zat dəfəatla [dəfələrlə] Ənzəli-Pirbazar arasında işləyən paraxodunu Bakı fərarilərinə kirayəsiz məccanən [pulsuz] vermiş və bundan maəda [başqa] Rəştdən Pirbazaradək bir gün vaqonları kirayə edib də Bakı və başqa fərarilərə ehsan etmişdir.

3) Məşədi Məhəmmədtağı Əliyev. Bu məsud cavan, milli işlərdə işləməkdən bir an qafil olmamaqla bərabər, fərarilərin füqərasına müavinəti layiqi-təhsindir [alqışa layiqdir]. Böylə ki, kəndisinin parası bitdikdə, bir müqarininin [yaxınının] qiymətli üzüyünü, minlərcə manatlara dəyən qızıl saatını, füqəra və fərarilərə bəzl etməkdən [xərcləməkdən] geri durmamış və həmin fərarilərin füqərasına Bakıya vürudlarında [gəlib çatdıqları zaman] hər birinə 500 və ziyadə manatlar mərhəmət buyurmuşdur;

4) Məşədi Hüseynbala Süleymanov, Məşədi Vahab Zərgər, Rəhim ağa və Məşədi Mirzağa Hacı Abbasqulu oğlu. Bu cənabların da insaniyyət və mərhəməti layiqi-təhsindir.

Yaşasın böylə kişilərimiz, əmsalı ziyadə olsun!

Kamali-ehtiramla, Müəllim Hacı Səlim (Səyyah) Qasımzadə

- 2 -

Möhtərəm müdir əfəndi! Bu təşəkkürümü qəzetənizin bir guşəsində dərc etməyi rica edirəm.

Keçən noyabrın 26-sında bəndənin dəniz kənarında olan mağazamdan oğrular tərəfindən aparılan 10 min manat miqdarında malımı ikinci polis müfəttiş və müavini tərəfindən təftiş edib tapdıqlarına binaən [görə], onlara səmimi-qəlbdən təşəkkürümü bəyan edirəm.

Ağaəlizadə İsmayıl

Müdir və baş mühərrir:
Ceyhun bəy Hacıbəyli

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Teleqraf xəbərləri

"Yassıda iniqad etmiş diplomatlar müşavirəsində...": Burada söhbət, Bolşevik Hökumətini tanımayan rus siyasi xadimlərinin, Könüllü ordu nümayəndələrinin və Antanta ölkələri təmsilçilərinin 16-23 noyabr 1918-ci ildə Yassıda baş tutan görüşündən gedir.

"Tərəqqipərvər bloku": 1915-ci ilin avqust ayında, Rusiyanın IV Dövlət Dumasındakı altı fraksiyanın və Dövlət Şurasının üç fraksiyasının birləşməsindən əmələ gələn Proqressiv blok nəzərdə tutulur.

"…xalq sosialisti…": Xalqçı Sosialistlər Partiyası nəzərdə tutulur.

"Dövləti İttifaq": "Böyük, vahid və bölünməz Rusiyanı bərpa etmək" məqsədi ətrafında birləşən bir sıra ictimai-siyasi xadimlərin 1918-ci ildə Kiyevdə qurduqları təşkilat olan Rusiyanın Dövlət Birliyi Şurası nəzərdə tutulur.

"Dövlət Şurası Mərkəzi": Rusiyanın Dövlət Birliyi Şurasının bürosu nəzərdə tutulur.

"Belçika kralı…": I Albert nəzərdə tutulur.

Krımda

"…Krımdan başqa…": Solomon Samoyloviç Krım nəzərdə tutulur.

Qəzetələrdən: Nikolay Nikolayeviç

"Nikolay Nikolayeviç": Rus çarı I Nikolayın nəvəsi, Böyük knyaz Nikolay Nikolayeviç (1856-1929) nəzərdə tutulur.

Qəzetələrdən: Tersk nahiyəsində

"Əksinqilabla mübarizə edici komitə": Ümumrusiya Əksinqilab və Sabotajla Mübarizə Fövqəladə Komissiyası nəzərdə tutulur.

Qəzetələrdən

"…Kalyayev, Perovskaya…": burada söhbət, Rusiya imperatoru II Aleksandra sui-qəsd təşkil edən Sofya Perovskayadan və II Aleksandrın oğlu Sergey Aleksandroviçə sui-qəsd təşkil edən İvan Kalyayevdən gedir. Perovskayanın abidəsi 29 dekabr 1918-ci ildə Sankt-Peterburqda, Nikolayev vağzalında (indiki Moskva vağzalı) açılmışdı. Kalyayevin abidəsi isə 7 noyabr 1918-ci ildə Moskvada, Aleksandrovski bağının girişində açılmışdı.

Bəyani-təşəkkür

"Mən əhyaha fəkəənnəma əhya-unnasə cəmiən": "Quran"ın "Maidə" surəsinin 32-ci ayəsindən bir parça. Mənası: "Hər kim bir nəfəri ehya etsə [diriltsə], bütün insanları ehya etmiş kimi olar."